*Zərifə Məmmədova.* Qanunvericilikdə inzibati orqanların təsnifatı // Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), s. 89-96. DOI: 10.61638/CIHO7962

# İNZİBATİ HÜQUQ

## QANUNVERİCİLİKDƏ İNZİBATİ ORQANLARIN TƏSNİFATI

ZƏRİFƏ MƏMMƏDOVA*

**Annotasiya**

*İnzibati hüquq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini həyata keçirməsini özündə ehtiva edir. Bu səbəbdən, icra hakimiyyəti orqanının strukturuna və səlahiyyətlərinə nəzər yetirmək, o cümlədən inzibati aktın qəbul edilməsi və hər hansı hərəkətlərin edilməsi zamanı fəaliyyət qaydasını müəyyən etmək labüddür. Bunu qəbul etmək lazımdır ki, inzibati orqanın hərəkətləri bu və ya digər şəkildə fiziki və ya hüquqi şəxslərin hüquq və maraqlarına toxunur. Məsələn, xüsusi icazə və ya lisenziya tələb edən kommersiya fəaliyyəti ilə məşğul olmaq istəyiriksə, mütləq şəkildə müvafiq inzibati orqan tərəfindən lisenziya verilməsi üçün həmin orqana müraciət olunmalıdır. İnzibati icraat dedikdə, fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyət başa düşülür. İnzibati icraatla yanaşı inzibati orqan anlayışı da təsbit edilmişdir. Məqalədə qanunvericilikdə inzibati orqanların anlayışı və təsnifatı ilə bağlı məsələlər öz əksini tapmışdır.*

**Açar sözlər:** *inzibati hüquq, idarəetmə, inzibati orqanlar, inzibati icraat, inzibati akt, diskresion, maraqlı şəxs, təsnifat.*

### *I. Giriş*

İnzibati icraat inzibati idarəetmə anlayışının təzahürü olmaqla dövlətin qanunla müəyyən edilmiş səlahiyyətli orqanları tərəfindən həyata keçirilən fəaliyyətdir. İnzibati icraatın mahiyyətinə gəldikdə, qeyd etmək lazımdır ki, bu, vətəndaşların hüquqlarının müdafiəsi üçün mühüm vasitələrdən biridir. Çünki inzibati icraat vətəndaşlara işin bütün hallarını bilməyə və inzibati icraatda fəal iştirak etməyə, iddialar irəli sürməyə və hətta yuxarı orqanlara və məhkəməyə müraciət etməyə imkan verir. Əlbəttə ki, inzibati icraatın aparılması zamanı inzibati hüquq münasibətlərinin iştirakçısı kimi bir tərəfdə inzibati orqanlar çıxış edir. İnzibati orqanların mühüm rolu ondan ibarətdir ki, bu münasibətlərin yaranmasında inzibati orqanların iştirakı mütləqdir. Bu münasibətlərdə bir tərəfdə dövlət hakimiyyəti xarakteri daşıyan inzibati orqanlar, digər tərəfdə isə fiziki və ya hüquqi şəxslər çıxış edir. Bu səbədən bu münasibətlərə eyni zamanda ümumi (publik) hüquqi münasibətlər deyilir. İnzibati icraatla bağlı yaranan bu münasibətləri mülki hüquqi münasibətlərdən fərqləndirə bilmək üçün inzibati orqanların anlayışı və təsnifatı dəqiqləşdirilməlidir. Məqalədə inzibati orqanların anlayışı, mahiyyəti araşdırılmış, mövcud qanunvericilikdə olan boşluqlar və təkliflər tədqiq edilmişdir. Məqalə giriş, 2 paraqraf və nəticə hissədən ibarətdir.

* Doktorant / Bakı Dövlət Universiteti / email: zarifamammadova8@gmail.com

*II. İnzibati icraat anlayışı və mahiyyəti*

İnzibati hüquq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini həyata keçirməsini özündə ehtiva edir. Bu səbəbdən, icra hakimiyyəti orqanının strukturuna və səlahiyyətlərinə nəzər yetirmək, o cümlədən inzibati aktın qəbul edilməsi və hər hansı hərəkətlərin edilməsi zamanı fəaliyyət qaydasını müəyyən etmək labüddür. Bunu qəbul etmək lazımdır ki, inzibati orqanın hərəkətləri bu və ya digər şəkildə fiziki və ya hüquqi şəxslərin hüquq və maraqlarına toxunur. Məsələn, xüsusi icazə və ya lisenziya tələb edən kommersiya fəaliyyəti ilə məşğul olmaq istəyiriksə, mütləq şəkildə müvafiq inzibati orqan tərəfindən lisenziya verilməsi üçün həmin orqana müraciət olunmalıdır.

İngilis dilində «administration», rus dilində «администрация» kimi ifadə olunan, Azərbaycan dilində də ümumi mənada «idarə» kimi tərcümə edilən anlayışdan dövlət və cəmiyyət idarəetməsi kimi iki mənada istifadə olunur. Administrasiya (idarə) öncə dövlətin müəyyən növ orqan və qurumlarını ifadə edir, bunlar haqqında qanunvericilik («İnzibati icraat haqqında» Qanun) "inzibati orqanlar" terminindən istifadə edir [3, s. 5].

İnzibati icraat hərtərəfli termin kimi geniş anlayışa malikdir. Hər bir demokratik dövlətin inzibati icraat qaydası vardır. Onlardan bəziləri, məsələn, ümumi hüquq ölkələri, məsələn, Fransa və ya hətta Avropa İttifaqı kimi ölkələr əsasən presedent hüququna əsaslanan tənzimləyici struktur yaratmışdır. Digərləri isə prosessual aspektləri həll etmək üçün hüquqi baza yaratmışlar. Bu model ABŞ-da (1946-cı il İnzibati Prosessual Aktı ilə birlikdə inzibati proses haqqında konstitusiya doktrinası), Almaniyada (1976-cı il Federal qanun), İtaliyada (1990-cı il qanunu) və İspaniyada (1956-cı il İnzibati Prosessual Qanun) qəbul edilmişdir [6, s.108].

Qanunvericiliyimizə nəzər yetirsək, inzibati icraatın əsasən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimləndiyini görərik. Həmin Qanunun 2.0.6-cı maddəsinə əsasən inzibati icraat dedikdə, fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyət başa düşülür.

Yuxarıda qeyd olunan norma baza rolunu oynamaqla inzibati icraatın dar mənada anlayışını ifadə edir. Dar mənada dedikdə, inzibati icraatda inzibati aktın qəbul edilməsi, dəyişdirilməsi, ləğv edilməsi və ya icra edilməsi başa düşülür.

Qeyd olunan anlayışdan görünür ki, inzibati icraatın başlanılması üçün Qanunda qeyd edilən 2 əsasdan biri olmalıdır: a) fiziki və ya hüquqi şəxsin müraciəti, b) inzibati orqanın təşəbbüsü. İnzibati orqan tərəfindən inzibati icraat başlanılması fiziki və ya hüquqi şəxsin müraciətinin qeydə alındığı gündən hesablanır. İnzibati orqanın öz təşəbbüsü ilə inzibati icraat başlanıldıqda, inzibati icraatın müddəti inzibati icraatın başlanılması haqqında qərarın qəbul olunduğu və yaxud inzibati icraatın aparılması ilə əlaqədar hərəkətlərin həyata

keçirilməyə başlanıldığı gündən hesablanır. Burada mübahisəli məqamlardan biri də inzibati icraatın başlanılması haqqında qərarın qəbul edilməsinin labüd olub-olmamasıdır. Qanunvericilikdə bununla bağlı xüsusi norma öz əksini tapmamışdır. İnzibati icraat inzibati orqanın təşəbbüsü ilə başlanıldıqda, inzibati icraatın açılması barədə qərarın qəbul edilməsinin formal olduğu və əhəmiyyət kəsb etmədiyi vurğulanır. Belə ki, əlavə prosedurun müəyyən edilməsi inzibati orqanın işinin daha da ləng olmağına gətirib çıxaracağı bildirilir. Yəni, inzibati orqanın müəyyən istiqamət özündə rəhbər tutaraq fəaliyyətə başlaması inzibati orqanın öz təşəbbüsü ilə inzibati icraata başlaması deməkdir. İnzibati icraatda inzibati orqan maraqlı şəxsə hüquqverən, onun hüququnu məhdudlaşdıran və ya ləğvedən inzibati aktlardan birini qəbul edir, dəyişdirir və ya ləğv edir. Həmçinin inzibati orqan qəbul edilən qərarlardan birinin icrasını təmin edir.

İnzibati icraat, əsasən, qurumun icazə verən aktının dili, müvafiq inzibati prosedur aktı və qurumun qəbul etdiyi prosessual qaydalarla tənzimlənir. Bir çox agentlik fərdi məsələlər üçün xüsusi prosedurlardan istifadə edir, ona görə də konkret agentliyin qərar qəbul etmə prosesini həddən artıq ümumiləşdirmək təhlükəlidir. Bəzi hallarda məhkəmələr qurumlardan müəyyən prosedurlara əməl etməyi tələb ediblər. Qərarların qəbul edilməsində agentliyin üç əsas komponenti var: qaydaların qəbulu (rulemaking), mühakimə (adjudication) və qeyri-rəsmi fəaliyyət (informal action). Agentliyin qərar qəbul etməklə bağlı prosedurları adətən agentliyin məşğul olduğu sahədən asılı olaraq dəyişir [11, s.18].

### *III. İnzibati orqan inzibat icraatın subyekti kimi*

İnzibati orqanların mahiyyətini başa düşmək üçün ilk növbədə mübahisənin hansı hüquq sahəsi tərəfindən tənzimləndiyini müəyyən etməyi tələb edir.

İnzibati icraatın aparılması zamanı tərəflərdən biri inzibati orqan, digəri isə fiziki və ya hüquqi şəxs çıxış edir. Fiziki şəxs dedikdə, Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər başa düşülür. Hüquqi şəxs dedikdə isə bütün kommersiya və ya qeyri-kommersiya təşkilatları başa düşülür. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilən vaxta qədər inzibati orqanın vahid anlayışı qanunvericilikdə nəzərdə tutulmamışdır. Həmin Qanunun 2.0.1-ci maddəsinə əsasən inzibati orqan dedikdə isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs başa düşülür. Nəzərə alınmalı olan nüanslardan biri də inzibati orqan anlayışı ilə dövlət orqanı anlayışını fərqləndirməkdir. Belə ki, bütün inzibati orqanlar dövlət orqanları olsa da, bütün dövlət orqanları inzibati orqan hesab oluna bilməz. Çünki dövlət orqanlarının siyası orqan kimi qəbul edilməsi istisna edilmir. Bu zaman həmin subyektlər inzibati hüququn deyil, konstitusiya hüququnun subyekti kimi çıxış edir.

İnzibati orqanlar vətəndaşların həyatına təsir edən fərdi qərarlar qəbul edir və iqtisadiyyata təsir edən ümumi siyasətlər müəyyən edirlər ki, hansı ki bu

orqanlar nə seçki qaydasında seçilmiş, nə də ictimaiyyət qarşısında birbaşa hesabat verən məmurlar tərəfindən idarə olunur [1, s.13].

Müasir hökumətin demək olar ki, elə bir funksiyası yoxdur ki, hansısa formada inzibati orqan iştirak etməsin. Agentliklərin sayında və gücündə böyük artımı müşahidə edən ABŞ Ali Məhkəməsinin hakimi aşağıdakıları qeyd edir:

"İnzibati orqanların yüksəlişi yəqin ki, ötən əsrin ən mühüm hüquqi tendensiyası olub və bəlkə də bu gün bütün məhkəmələrin qərarlarından daha çox dəyərə onların qərarları təsir edir. . . Onlar hakimiyyətin həqiqi dördüncü qoluna çevriliblər".

İnzibati orqan dövlət orqanı kimi müəyyən edilə bilər baxmayaraq ki, nə məhkəmələr, nə də qanunverici orqan kimi vətəndaşların hüquq və vəzifələrinə təsir mexanizminə malikdirlər. Onlar icra hakimiyyətinin tərkibində olsalar da, əksəriyyəti əsasən icra hakimiyyəti qarşısında hesabat vermirlər. Hökumətin icraedici qolu termini ya prezidentə (məsələn, ABŞ-da), ya da baş nazirə və nazirlər kabinetinə (məsələn, Efiopiya) istinad etmək üçün istifadə olunur. Bu tərif müəyyən qədər dəqiqliyə malik deyil. Məhkəmə və ya qanunverici orqan hesab edilməyən qurum mütləq deyildir ki, inzibati orqan hesab edilsin. Bu o demək deyil ki, qanunverici orqan bəzi ictimai-siyasi səbəblərə görə hansı agentliyin düzgün agentlik adlandırıla biləcəyini müəyyən etmək üçün daha geniş əhatəli yanaşmanı seçə bilməz. Amerika İnzibati Prosessual Aktı bunu qəbul edir və inzibati orqanı Konqres, məhkəmələr, Kolumbiya dairəsinin hökuməti, hər hansı ərazinin və ya mülkiyyətin hökuməti, hərbi məhkəmələr və ya hərbi hakimiyyət orqanlarına daxil olmayan hər hansı ABŞ hökumət orqanı kimi müəyyən edir. Bu anlayışda məhdud inzibati orqan anlayışı verilir ki, bu da dövlət orqanlarının əhatə dairəsini azaldır.

İnzibati qurumun daha ətraflı tərifi Nyu-York İnzibati Prosedur Aktında verilmişdir, burada deyilir:"Agentlik qanunla üzvlərindən ən azı biri icra hakimiyyəti səlahiyyətini həyata keçirən başçı (Prezident və ya Baş Nazir) tərəfindən təyin edilmiş, dövlətin və ya ictimai faydalı korporasiyanın və ya dövlət orqanının hər hansı departamenti, kollegiyası, bürosu, komissiyası, şöbəsi, idarəsi, şurası, komitəsi və ya məsul işçisidir, qanunla qaydalar qəbul etmək və ya yekun qərarlar qəbul etmək səlahiyyətinə malikdir, lakin, qanunverici, məhkəmə hakimiyyəti orqanları, ya beynəlxalq müqavilə ilə yaradılmış qurumlar, hərbi və dəniz işləri üzrə öz məsuliyyətini həyata keçirdikləri həddə hərbi və dəniz işləri bölgüsü, dövlət polisinin bölgüsü, cinayət ədliyyə xidmətləri bölməsinin identifikasiya və kəşfiyyat bölmələri, dövlət sığorta fondu, işsizlikdən sığorta apellyasiya şurası bura daxil deyildir".

Qeyd olunan tərifdə inzibati orqan anlayışının daha geniş və əhatəli verilməsinin səbəbi onun əhatə dairəsinin konkretləşdirilməsidir.

Hər hansı bir qurumu inzibati orqan kimi müəyyən etmək üçün onun inzibati orqana məxsus fərqləndirici əlamətlərinin mövcud olub-olmamasına diqqət yetirməliyik. İlk növbədə, nomenklatura qurumun inzibati orqan statusuna malik olub-olmamasının göstəricisidir. İnzibati orqanlar departament,

idarə, komissiya, büro, kollegiya və s. adlandırılır. İkincisi, inzibati orqan inzibati akt qəbul etmək səlahiyyətinə malikdir və bundan əlavə icra funksiyalarını həyata keçirir. Ümumiyyətlə, inzibati orqan imperativ hərəkətlə və qərarlar qəbul etmək səlahiyyətinə malikdir.

İnzibati orqanın digər xüsusiyyəti isə onun nisbi müstəqilliyə malik olmasıdır. İnzibati orqanların publik maraqların daşıyıcısı və publik hüququn subyekti olmasının göstəricilərindən biri də onun diskresion səlahiyyətləridir. Qüvvədə olan qanunvericiliyə əsasən diskresion səlahiyyətlər-qanunla inzibati orqana və ya vəzifəli şəxsə mümkün qanunauyğun qərarlardan birini seçmək hüququnun verilməsidir [9, s. 433].

İnzibati orqanların təsnifatını nəzərdən keçirsək, ilk növbədə, icra hakimiyyəti orqanları anlayışına aydınlıq gətirmək lazımdır. İcra hakimiyyəti orqanları anlayışı konstitusion xarakterə malikdir. Konstitusion mənada icra hakimiyyəti orqanları dedikdə, prezident başda olmaqla icra hakimiyyəti qoluna aid edilmiş bütün orqanlar nəzərdə tutulur. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan icra hakimiyyəti orqanı anlayışı daha geniş xarakterə malik olmaqla, inzibati idarəçiliyi həyata keçirən bütün icra orqanları nzərədə tutulur. Burada icra hakimiyyəti orqanları dedikdə, Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları başa düşülür. Bununla da Prezidentin inzibati orqan kimi qəbul edilməsi istisna edilir. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları dedikdə, birinci Prezident olmaqla, Nazirlər Kabineti, Nazirliklər (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Daxili İşlər Nazirliyi və s.), komitələr (Dövlət Gömrük Komitəsi və s.), agentliklər (Məşğulluq Agentliyi və s.) daxil edilir. Qanuna əsasən publik hüquqi şəxslər də inzibati orqan hesab edilir. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsinə əsasən publik hüquqi şəxs dövlət və bələdiyyə adından yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır.

Qanunvericilikdə inzibati orqanlar anlayışına yerli icra hakimiyyəti orqanları aid edilir. Yerli icra hakimiyyəti başçısı tərəfindən qəbul edilmiş aktlar inzibati orqan tərəfindən qəbul edilmiş inzibati akt hesab edilir. Nəzərə alınmalıdır ki, şöbə və idarələr yerli icra hakimiyyəti orqanının tərkib hissəsi olmaqla, müstəqil inzibati orqan hesab edilmirlər. Həmçinin yerli icra hakimiyyəti orqanları normativ xarakterli aktlar qəbul etmək səlahiyyətinə malikdirlər. Bu zaman yerli icra hakimiyyəti orqanı inzibati orqan kimi çıxış edir [8, s.38].

Mərkəzi icra hakimiyyəti orqanları öz funksiyalarını bilavasitə icra etmək üçün ərazi və struktur bölmələrini yaradırlar. Həmin orqanlar müstəqil inzibati orqan hesab edilir və inzibati akt qəbul etmək səlahiyyətinə malik olurlar (məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi).

Qanunvericilikdə bələdiyyələr də inzibati orqan kimi nəzərdə tutulmuşdur. Belə ki, bələdiyyələr yerli özünüidarəetməni həyata keçirməklə, vətəndaşlarla

münasibətlərdə inzibati orqan hesab edilir. Bələdiyyələr fəaliyyətinə 2 növ akt qəbul etmək səlahiyyətinə mallikdir: normativ və fərdi. Bələdiyyələrin qəbul etdiyi normativ xarakterli aktlar yalnız Konstitusiya Məhkəməsi tərəfindən yoxlanıla bilər. Lakin bələdiyyələrin konkret hadisə ilə bağlı qəbul etdiyi xüsusi tətbiq aktları inzibati akt kimi nəzərdə tutulur.

İnzibati akt qəbul etmək səlahiyyətinə malik olan fiziki və hüquqi şəxslər ictimai münasibətlərdə həm mülki dövriyyənin iştirakçısı, həm də inzibati akt qəbul edən inzibati orqan kimi çıxış edir.

"İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli 136 nömrəli qərarında inzibati orqanların siyahısı qeyd olunmuşdur. Həmin soyahıda ətraflı şəkildə inzibati orqanların dairəsi öz əksini tapmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 fevral 2017-ci il tarixli 57 nömrəli Qərarı ilə Qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslər də siyahıya əlavə edilmişdir.

Qanunvericiliyi nəzərdən keçirən zaman bu siyahıya publik hüquqi şəxslərin əlavə edilmədiyinin şahidi oluruq. Nəzərə alınmalıdır ki, hüquqi şəxs və publik hüquqi şəxs anlayışı fərqli anlayışlar olmaqla qanunvericilikdə tənzimlənir. Mülki Məcəllənin 43-cü maddəsinə əsasən hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsinə əsasən publik hüquqi şəxs dövlət və bələdiyyə adından yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilat hesab edilir. Göründüyü kimi, hər iki anlayış fərqli qanunvericilik aktlarında təsbit olunmaqla öz tənzimlənmə qaydasını müəyyən edir.

Hazırda təcrübədən və bir çox məhkəmə işlərini nəzərdən keçirərkən inzibati məhkəmə mübahisələrində tərəf kimi publik hüquqi şəxslərin də çıxış etdiyini görürük (məsələn, Dövlət Sosial Müdafiə Fondu, Əmlak Məsələləri Dövlət Xidməti və s.). Burada vacib məqamlardan biri də odur ki, tərəf qismində yalnız publik hüquqi şəxslər deyil, eyni zamanda onların filial və ya struktur bölmələri də çıxış edir (məsələn, Dövlət Sosial müdafiə Fondunun Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi Filialı). İnzibati orqanın əsas xüsusiyyətlərindən biri onun inzibati akt qəbul etmək səlahiyyətinə malik olmasıdır. Bu səbəbdən inzibati akt qəbul etmək səlahiyyətinə malik olan yalnız hüquqi şəxslər deyil, eyni zamanda publik hüquqi şəxslər, onların yerli (struktur) bölmələri də bura aid edilir.

*IV. Nəticə*

Yuxarıda qeyd olunanları və aparılan hərtərəfli təhlilləri nəzərə alaraq, "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli 136 nömrəli qərarında publik hüquqi şəxslər və onların yerli (struktur) və digər qurumlarının da inzibati orqanların siyahısına əlavə edilməsi təklif edilir.

Qeyd edilən təklif inzibati orqanların əhatə dairəsinin bir qədər də genişləndirilməsi məqsədi daşıyır ki, bu da qeyd edilən sahədə bir sıra tədqiqatların aparılmasını zəruri edir.

**ƏDƏBİYYAT (REFERENCES):**

1. Aberham Yohannes. Administrative Law Teaching Material. Indore Institute of Science & Technology, 2009. P. 1-247.
2. Ernest Gellhorn & Glen O.Robinson. Perspectives on Administrative Law, 1975. 75 Colum. L. Rev. 771.
3. Farhad Mehdiyev. Administrative law. Qafqaz University, 2010. Page 515 (in Azerbaijani – *Fərhad Mehdiyev (2010). İnzibati hüquq. Qafqaz Universiteti. Səhifə 515*).
4. George H.S. Judicial Review of Administrative Decisions, 1940, 24 Marquette Low Revew,Volume 24, Issue 2, P. 1-21.
5. Norton E. Long. Power and administration. Public Administration Review, 1949. pp. 257-264.
6. Prof. Andrés Molina G. Administrative law. University of Alicante. Spain.Law School, 2013.
7. Richard B.Stewart. Administrative law in the twenty-first century. New York University Law Review, 2013, 437.
8. Sayyad Karimov, Gunesh Aliyeva. Commentary on the Law of the Republic of Azerbaijan on administrative proceedings. Baku: Legal literature publishing house, 2006, 464p (in Azerbaijani – *Səyyad Kərimov, Günəş Əliyeva. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanunu kommentariya. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2006, 464 s*).
9. Subhan Aliyev. Administrative law. Textbook. Baku: Baku University Publishing House, 2019, 686 p. (in Azerbaijani – *Sübhan Əliyev. İnzibati hüquq. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2016, 686 s.*).
10. Timothy E. Administrative law First Edition. Oxfor University Press, 2009. 643.
11. William F. Fox. Understanding Administrative Law Fourth Edition. Matthew Bender & Company, Inc., a member of the LexisNexis Group, 2000.

## Classification of administrative authorities in the legislation

ZARİFA MAMMADOVA*

**Abstract**

*Administrative law includes the exercise of the powers of executive authorities. For this reason, it is necessary to look at the structure and powers of the executive authority, as well as to determine the order of operation during the adoption of the administrative act and any actions. It should be accepted that the actions of the administrative body affect the rights and interests of individuals or legal entities in one way or another. For example, if we want to engage in commercial activities that require a special permit or license, we must apply for a license from the relevant administrative authority. Administrative proceeding means the adoption, implementation, change or cancellation of an administrative act based on the request of natural or legal persons or on the initiative of administrative bodies, as well as the procedure established by this Law by the relevant administrative bodies for considering administrative complaints. activity is understood. In addition to administrative proceedings, the concept of administrative body has also been established. The article reflects the issues related to the definition and classification of administrative bodies in the legislation.*

**Keywords:** *administrative law, management, administrative bodies, administrative proceedings, administrative act, discretionary, interested person, classification*.

## Классификация административной власти в законодательной органе

ЗАРИФА МАМЕДОВА**

**Резюме**

*Административное право включает в себя осуществление полномочий органов исполнительной власти. По этой причине необходимо посмотреть структуру и полномочия органа исполнительной власти, а также определить порядок действий при принятии административного акта и любых действиях. Следует признать, что действия административного органа тем или иным образом затрагивают права и интересы физических или юридических лиц. Например, если мы хотим заниматься коммерческой деятельностью, требующей специального разрешения или лицензии, мы должны подать заявление на получение лицензии в соответствующий административный орган. Административное производство – принятие, исполнение, изменение или отмена административного акта на основании обращения физических или юридических лиц или по инициативе административных органов, а также порядок, установленный настоящим Законом соответствующими административными органами для рассмотрения административных жалоб. .деятельность понимается. Помимо административного производства, установлено также понятие административного органа. В статье отражены вопросы, связанные с определением и классификацией административных органов в законодательстве*.

**Ключевые слова:** *административное право, управление, административные органы, административное производство, административный акт, дискреционное право, заинтересованное лицо, классификация*.

**Redaksiyaya daxil olma tarixi: 26.07.2024**
**Çapa qəbul: 24.12.2024**

---

* PhD Candidate / Baku State University / email: zarifamammadova8@gmail.com

** Докторант / Бакинский Государственный Университет / email: zarifamammadova8@gmail.com